# XƏZƏR DƏNİZİ SƏVİYYƏSİNİN DƏYİŞMƏLƏRİNİN AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ NEQATİV TƏSİRLƏRİ

**Ə.S. Əliyev**
Coğrafiya elmləri doktoru, professor
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
amir50@mail.ru

Məqalədə Xəzər dənizi səviyyəsinin instrumental müşahidələr müddətində, 1837 – 2022 - ci illərdə kəskin dəyişmələri, xüsusilə son 26 ildə (1995 – 2021 – ci illər) mütəmadi azalması və bu prosesin sahil zonasına təsirləri araşdırılır. Göstərilir ki, bu proses nəticəsində dəniz sahildən müxtəlif yerlərdə 100 – 1000 m məsafəyə qədər çəkilmiş və Respublikamızın dənizsahili zonasında təqribən 38 min ha torpaq sahəsi dəniz altından çıxmışdır. Müəyyən edilmişdir ki, bu müddətdə dəniz altından çıxan torpaqların əsas hissəsi şimal zonasında Xaçmaz rayonu və şənub zonasında isə Qızıl – Ağac körfəzi, Masallı və həmçinin Neftçala rayonunun sahil ərazilərinin payına düşür.

***Açar sözlər:*** *Xəzər dənizi, Tetis okeanı, körfəz, suyun səviyyəsi.*

Xəzər dənizi Dünya okeanı ilə birbaşa əlaqəsi olmadığına görə Yer planetində ən böyük göldür. Lakin ölçülərinin böyük olması (1200 km uzunluğu, 350 km eni), suyunun fiziki-kimyəvi tərkibinin dənizlərlə eyni olması, qədim Tetis okeanının sələfi olması və digər xüsusiyyətlərinə görə dəniz hesab edilir. Dənizin ən mühüm xüsusiyyəti onun səviyyəşsinin daima qalxıb-enməsidir. Tarixi mənbələr göstərir ki, Xəzəin su səviyyəsinin dəyişmə amplitudu son 4 min ildə 15 m, axırıncı 200 ildə (instrumental müşahidələr müddətində) isə 3,5 m olmuşdur [1, 2].

Xəzər dənizi səviyyəsinin dəyişməsinə əsas səbəb Şimali Atlantikada və biləvasitə onun hövzəsində baş verən iqlim prosesləri və onların dəyişmələridir. Bu proseslər nəticəsində dənizin su

balansı dəyişir ki, bu da səviyyənin qalxıb-enməsinə səbəb olur. Su balansı iki hissədən-mədaxil və məxaricdən ibarətdir. Balansın mədaxilini dənizə daxil olan sular (çay axımları, bitbaşa atmosfer yağıntıları, yeraltı sular), məxaricini isə (dəniz səthindən buxarlanma və Qara-Boğaz-Qol körfəzinə axımlar) təşkil edir. Su balansı müsbət olduğu illərdə onun səviyyəsi qalxır, mənfi olduqda isə enir. Həmçinin dənizin səviyyə tərəddüdlərinə qlobal iqlim dəişmələri (son dövrdə onun istiləşməsi) və antropogen təsirlər də müəyyən rol oynayır [1, 2].

Xəzər dənizinin səviyyəsi instrumental müşahidələr müddətində 3 dəfə kəskin dəyişməyə məruz qalıb: 1930-1977-ci illərdə 3.0 m azalmış, 1978-1995-ci illərdə 246 sm qalxmış, 1995-ci ildən 2022-ci ilə qədər isə 190 sm enmişdir. Səviyyənin mütəmadi (fasiləsiz) olaraq azalması 2005-ci ildən başlayaraq orta hesabla ildə 10-15 sm sürətlə düşməkdə davam etməkdədir (Şəkil 1).




Şəkil 1. Xəzər dənizi səviyyəsinin 1837-2021-ci illərdə dəyişmələri

Səviyyənin hazırki durumunda Azərbaycan Respublikasının dənizlə təmas xəttinin uzunluğu təxminən 750 km təşkil edir. Dənizin 18 il qalxması (1978-1995-ci illər) nəticəsində Respublikanın

sahil zonasında 50 min ha torpaq sahəsini su basmışdır. Ən çox su basmaya (80 faizi) sahil ərazisinin cənub zonası (Kür çayi deltasından cənuba doğru olan alçaq əqazilər məruz qalmışdır. Bu müddət ərzində bütün sahil ərazisi üzrə 50 yaşayış məntəqəsi, 250 sənaye müəssisəsi, 15 km dəmir yolu xətti, 60 km avtomobil yolları, 100 min nəfərlik sağlamlıq-kurort obyektləri və digər sahələrə ciddi ziyanıar dəymişdir. Təxmini hesablamalara gorə bu proses nəticəsində iqtisadiyyata dəyən zərərin miqdarı 2 milyard amerika dolları (ABS) həcmində olmuşdır. Şəkil 2-də Respublikamızın dəniz sahil zonasında yerləşmiş 11 inzibatı rayon üzrə sudasmaya məruz qalmış ərazilərini göstərən diaqramlar göstərilmişdir.




Şəkil 2. Xəzər dənizi səviyyəsinin 2005-2022-ci illərdə mütəmadi enməsi

Hazırda dənizin səviyyəsi enmə mərhələsindədir, uzunmüddətli proqnozlara görə səviyyənin azalması 2050-ci illərə qədər davam edəcəyi və 1-2 m də enməsi ehtimal edilir. Dəniz səviyyəsinin enməsinin neqativ nəticələri onun yüksəlməsi dövrü ilə müqaisədə daha da çoxdur. Belə ki dənizin çəkilməsi (bəzi ərazilərdə 100-1000 m.) zamanı dəniz altından çıxan torpaqlar xeyli şoranlaşmış olduğundan onların kənd təsərrüfatında istifadə edilməsi çox böyük

məsrəflər tələb edir. Həmçinin dəniz səviyyəsinin kəskin enməsi dəniz gəmiçiliyinə, balıqçılıq təsərrüfatına, neft-qaz sənayesinə və digər sahələrə xeyli ziyanlar vurur [2, 3].

Cədvəl 1-də Xəzər dənizinin səviyyəsinin kəskin dəyişməsi dövrlərində Respublikamızın dənizsahili ərazilərində dəniz altında qalmış və dəniz altından çıxmış torpaq sahələrinin inzibati rayonlar üzrə qiymətləri verilmişdir. Xəzərin səviyyəsinin son 17 ildə 2 m qədər azalması nəticəsində dəniz altından ümümilikdə təqribən 37 min ha torpaq sahəsi çıxmışdır. Şəkil 3-də həmin inzibatı ərazilər üzrə dəniz altından azad olmuş torpaq sahələrinin müqaisəli diaqramı gostərilmişdir.

Cədvəl 1

İnzibati rayonlar üzrə subasmış və dəniz altından çıxmış torpaq sahələri (ha)

| Rayonlar | Sahil xəttinin uzunluğu, km | Subasma sahələri 1977-1995 | Dəniz altından çıxmış sahələr 1996-2022 |
|---|---|---|---|
| | | Səviyyə -26,50 mBS | Səviyyə . -28,40 mBS |
| Xaçmaz | 66 | 2070 | 1573 |
| Dəvəçi | 20,7 | 1040 | 790 |
| Siyəzən | 39,6 | 610 | 464 |
| Xızı | 26,1 | 510 | 388 |
| Bakı meriyası | 289,6 | 3820 | 2903 |
| Salyan | 11,7 | 60 | 46 |
| Neftçala | 94,6 | 13270 | 10085 |
| Qızılağac qor. | 102 | 23900 | 18164 |
| Masallı | 31,5 | 2670 | 2029 |
| Lənkəran | 35,1 | 410 | 312 |
| Astara | 21,1 | 90 | 68 |
| Cəmi | 738,10 | 48450 | 36822 |




Şəkil 3. Dəniz səviyyəsinin 1978-1975-ci illərdə kəskin qalxması nəticəsində su basmış ərazilər (AR inzibati rayonlar üzrə)




Şəkil 4 Dəniz səviyyəsinin 1996-2021-ci illərdə enməsi nəticəsində dəniz altından çıxmış ərazilər (AR inzibati rayonlar üzrə)

Müəyyən edilmişdir ki, bu müddətdə dəniz altından çıxan torpaqların əsas hissəsi şimal zonasında Xaçmaz rayonu və cənub

zonasında isə Qızılağac körfəzi, Masallı və həmçinin Neftçala rayonunun sahil ərazilərinin payına düşür.

## Ədəbiyyat


1. Алиев А.С. Подъем уровня Каспийского моря и затопление прибрежной зоны Азербайджанской Республики. Баку: Элм, 2001. 145 с.
2. Алиев А.С., Гардашов Р.Г., Сулейманлы Д.Г. Осебонности колебания уровня Каспийского моря в последнее 180 лет // Coğrafiya və təbii resurslar Jurnalı, № 2. Bakı: 2022.
3. Алиев А.С., Татлыева З.И., Ахмедова Р.Ю., Сулейманлы Д.Г. Изменения уровня Каспийского моря и его последствия в прибрежной зоне Азербайджанской Республики // ANAS Transactions, №2. Bakı: 2021.
4. Гидрометеорология и гидрохимия морей, Т. IV Каспийское море. / под ред. Ф.С. Терзиева. Санкт-Петербург. 1992. 360 с.


## NEGATİVE CONSEQUENCES OF CHANGES İN THE LEVEL OF THE CASPİAN SEA ON THE TERRİTORY OF THE REPUBLİC OF AZERBAİJAN


The article examines the sharp changes in the level of the Caspian Sea during the period of instrumental observations from 1837 to 2022, especially its regular decrease in recent years (1995-2021), and the effects of this process on the coastal zone. It is shown that as a result of this process, the sea was drawn up to a distance of 100-1000 m from the coast, and 38 thousand ha of land in the coastal zone of our Republic came out from under the sea. It has been established that during this period the main part of the lands that came out from under the sea belongs to the Khachmaz region in the northern zone, as well as the coastal territories of the Kyzyl-Agach Bay, Masalli, and Neftchala districts in the southern zone.



*Keywords: Caspian Sea, Tethys Ocean, gulf, water level.*